**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ.**

F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ METODİKA ŞÖBƏSİ

# Təbiəti - öz gələcəyimizi qoruyaq!

( "Ekologiya ili" nə həsr olunmuş metodik vəsait)

**BAKI – 2010**

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## Tərtibçidən

Bildiyimiz kimi 2010-cu il Azərbaycan Respublikasının dövlət başçısı tərəfindən "Ekologiya ili" elan olunmuşdur. İlham Əliyevin "Ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" barədə imzaladığı 2006-cı il 28 sentyabr tarixli sərəncamı, əlaqədar orqanlarla birlikdə hər bir Azərbaycan vətəndaşı üzərinə də böyük öhdəliklər qoyur.

Onu da qeyd edək ki, insanların ekoloji cəhətdən maarifləndirilməsinin erkən yaşda həyata keçirilməsi olduqca zəruridir. Çünki hər bir uşaq cəmiyyətimizin gələcək yetkin fərdinə çevrilərək onun inkişafında mühüm rol oynamaq imkanına malikdir. Elə bu səbəbdən uşaqların ekoloji cəhətdən tərbiyələndirilməsinə xüsusi diqqət yetirilməlidir. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" 10 dekabr 2002-ci il tarixli dövlət qanunun 7.1-6 maddəsində deyildiyi kimi: "Hər kəsi təbiətə qayğılı və məsuliyyətli münasibət bəsləmək ruhunda tərbiyə etmək" lazımdır. Bu müddəaların yerinə yetirilməsində, uşaqların ekoloji cəhətdən tərbiyələndirilməsi sahəsində təkcə təhsil müəssisələrinin deyil, eyni zamanda kitabxanaların da üzərinə böyük məsuliyyət düşür. Bu məqsədlə kitabxanamızın ekologiya ilinə həsr olunmuş metodik vəsaiti sizə təqdim edirik.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

# Giriş

Bəşəriyyətin müasir inkişaf mərhələsində cəmiyyətlə təbiət arasında münasibətlər daha da kəskinləşmiş, insanları narahat edən ciddi problemlər yaradılmışdır. Keçmiş inkişaf mərhələlərində yaranmış ekoloji problemlərin bünövrəsi üzərində kəskinləşən problemlər XX əsrin son onilliklərindən başlayaraq daha da kəskinləşmiş, müasir dövrün qlobal problemlərinə çevrilmişdir. Coğrafi mühit öz təbii vəziyyətini itirərək faciəli hala düşmüşdür. Min illər ərzində insanın qarşılıqlı əlaqədə olduğu təbii mühit öz təsərrüfat fəaliyyətinin nəticəsində əsaslı surətdə dəyişdirilmişdir. Nəticədə bütün bəşəriyyəti əhatə edən cəmiyyətin sonrakı fəaliyyətini və təsərrüfatın inkişafını təhlükədə qoyan problemlər təbii resursların tükənməsi və ətraf-mühitin çirklənməsi kimi problemlər meydana gəlmişdir. Odur ki, XX əsr insanın təbiətə, onun sərvətlərinə qəddar münasibət bəslədiyi dövr kimi bəşəriyyətin tarixinə qara səhifə ilə həkk olunub. Kosmik fəzadakı raketlərin sayının gündən-günə çoxalması, tədqiqatlar, I və II Dünya müharibələri, fabrik, zavod, kombinatların tullantıları, radioktiv çirklənmə, kənd təssərüfatında işlədilən kimyəvi preparatlar atmosferi, hidrosferi və litosferi çirkləndirib, biosferin və ekosistemlərin ekoloji tarazlığını pozub, onun sərvətlərinə çox güclü zərbə endirilib, okean, dəniz, göl və çaylar zəhərli və zərərli maddələrlə çirklənib, bitki və heyvanların bəziləri məhv olub.

Bu kimi ekoloji problemlər XX əsrin əvvəllərindən etibarən ictimaiyyəti ciddi surətdə narahat etməyə başladı. Dünyanın bir sıra qabaqcıl ölkələri bu problemlərlə əlaqədar müəyyən tədbirlər görməyə, əlaqədar təşkilatlar yaratmağa və mövcud təşkilatları gücləndirməyə səy göstərirdi.

BMT-nin 1992-ci ildə Braziliyanın Rio-de Janeyro şəhərində keçirilən konfransda "XXI əsrin gündəliyi" adlı planetar və bəşəri əhəmiyyərli tarixi sənəddə davamlı insan inkişafının strateji istiqamətləri prioritet kimi qəbul olunmuşdur. Bu istiqamətlər atmosferin mühafizəsi, torpaq resurslarının planlaşdırılması və səmərəli istifadəsinə kompleks yanaşma, meşəsizləşmə səhralaşma quraqlığa qarşı mübarizə, bioloji növ müxtəlifliyinin qorunub saxlanması, ekoloji təmiz və təhlükəsiz biotexnologiyanın istifadəsi, məişət və sənaye tullantılarının çirkab sularının zərərsizləşdirilməsi və onlardan təkrar istifadə olunmasına və s. yönəldilmişdir.

Azərbaycan hazırda nadir iqtisadi inkişaf dövrünü yaşayır. Ulu öndərimiz Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində respublikamız artıq regionda lider ölkəyə çevrilmişdir. Xalqımızın təbii sağlam mühitdə yaşaması və təbii sərvətlərdən istifadəsi məsələsi son dörd ildə Respublika Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Bu baxımdan, aparılan sosial-iqtisadi islahatlar da, ölkəmizin ekoloji durumunun gündən-günə yaxşılaşdırılması istiqamətində atılan addımlar da həmin xüsusi diqqət və qayğının bariz nümunəsidir.

Respublika Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" barədə imzaladığı 2006-cı il 28 sentyabr tarixli sərəncamından sonra ölkənin gərgin ekoloji vəziyyətdə olan bölgələrinin, eyni zamanda Bakı

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

şəhəri və Abşeron yarmadasının ətraf-mühitinin sağlamlaşdırılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz fəaliyyətində daha mühüm addımlar atmışdır.

Planda ayrı-ayrı bölgələrin, Bakı şəhərinin və Abşeron yarımadasının ətraf mühitinin sağlamlaşdırılması nəzərdə tutulmuşdur. Respublika Prezidentinin göstərişinə əsasən maliyyə vəsaitlərinin ayrılması hesabına Bakı Buxtasının Bibiheybət zonasının, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının, Abşeron Yarımadasındakı göllərin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və istehsal tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, bərk məişət tullantılarının idarə olunması sxeminə uyğun Bakı və başqa tədbirlərin həyata keçirilməsi, problemlərin vaxtında həll edilməsi reallaşmışdır.

Dövlət başçısı cənab İlham Əliyev müsahibələrin birində belə qeyd etmişdir: "İndi ölkənin maddi imkanları artır. İlk növbədə, biz bundan istifadə edib onu insanlarımızın daha da yaxşı yaşamasına yönəltməliyik. Insanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf-mühitin qorunmasıdır. "

Bu sözlər ölkə başçısının öz vətəndaşlarına nə qədər böyük önəm verdiyini göstərir. Məhz bu səbəbdən də bizlər hörmətli prezidentimizin bu sözlərini nəzərə alaraq təbiətin, ətraf-mühitin mühafizəsinə, təmizliyinə diqqətlə yanaşmalı, və mövcud ekoloji problemlərlə əlaqədar öz üzərimizə düşən hər bir vəzifəni laiqincə yerinə yetirməliyik.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## I. Təbiəti-öz gələcəyimizi qoruyaq!

Ekoloji vəziyyət, sağlamlıq, ətraf-mühitin qorunması yaxşı həyat şəraitimizi təmin edən əsas amillər sayılır. Təbiətə sevgini, onunla düzgün davranış qaydalarını hələ lap kiçik yaşlarda öyrənmək olduqca vacibdir. Məhz bu səbəbdən də kitabxanalar üzərinə böyük öhdəliklər düşür. Belə ki, təbiətin uşaqlara sevdirilməsi, onun qorunmasının təbliği kitabxanalarımızın əsas vəzifələrindən biridir. Bu məqsədlə də kitabxanalarda əlaqədar mövzu ilə bağlı bir sıra tədbirlər keçirmək mümkündür. Belə tədbirlərdən biri icmallardır. İcmalların köməyi ilə oxucuları düzgün istiqamətləndirmək, onları mövzu ilə əlaqədar çıxan kitablarla tanış etmək mümkündür.

Ekologiya mövzusu ilə əlaqədar Zaman Novruzovun və Nəcəf Hacıyevin "Bəxt aynası", eyni zamanda Zaman Novruzovun "Vəhşilər arasında" kitablarının icmallarının keçirilməsi oxucularda maraq doğurar. Zaman Novruzovun "Vəhşilər arasında " kitabını yazıçı-ekoloqun heyvanlar üzərində təbii şəraitdə apardığı müşahidələrin yarım əsrlik salnaməsi adlandırmaq olar. Kitab təbiətsevərlər, şagirdlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitab heyvanlar, quşlar, balıqlar haqqında olan elmi-publisistik oçerkləri əhatə edir. Oçerklərdə bitki və heyvanlar aləminin xüsusiyyətləri, onların həyat tərzi çox aydın şəkildə öz əksini tapmışdır. 1998-ci lidə "Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya birliyi tərəfindən nəşr olunan bu kitab hər bir oxucuda maraq doğura bilər.

Mövzu ilə əlaqədar digər bir kitab isə Z. Novruzovla, N. Həsənovun birgə müəllifi olduğu "Bəxt aynası" kitabıdır. Bu kitab müəlliflərin Xəzərin hüquqi mühafizəsi üzrə apardıqları uzun illərin müşahidələri və iş təcrübələrinin məcmuudur. Xəzəri "bəxt aynası" adlandıran müəlliflər oxucuları onun əvəzsiz sərvətindən səmərəli istifadə etməyə və mühafizə edib gələcək nəsillərə çatdırmağa çağırırlar.

Kitabda Xəzərin keçmiş və müasir vəziyyəti, su səviyyəsində baş verən dəyişikliklər barədə geniş məlumat verilir. 1999-cu ildə Bakıda Şirvannəşr tərəfindən çap olunmuş kitab şagirdlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Qeyd etdiyimiz kimi uşaqlara təbiət sevgisinin aşılanmasında kitabxanaçıların üzərinə böyük öhdəliklər düşür. Belə ki, kitabxanaçılar uşaqlarda təbiətə qayğılı münasibət aşılamaq üçün müəyyən məsləhətlər verərək onları düzgün istiqamətləndirə bilərlər. Kitabxanaçılar tərəfindən uşaqlara aşağıdakı məsləhətlərin verilməsi müsbət nəticələr verər:

**1.** Təkrar istifadə üçün metal tullantısı toplayın. Bu həm təbii ehtiyatları qoruyar, həm də tullantı topalarını azaldar.

**2.** Suya və elektrik enerjisinə qənaət edin. Suyu axıtmayın və boş yerə işıq yandırmayın. Unutmayın ki, açıq kran hər dəqiqə 10-15 litr içməli su axıdır.

**3.** Ətraf-mühiti, təbiəti qoruyun. Ağacları qırmayın, çöl çiçəklərini qoparmayın, cücü və kəpənəkləri öldürməyin, gölləri-çayları çirkləndirməyin. Bir başqasının da belə əməllərinə imkan verməyin. Təbii ki, məişət tullantıları ilə - metal qab,

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

polietilen torba, şüşə çiliyi, konfet kağızı və s. ilə ətrafı kirləməyin. Elə qeyri-üzvi maddələr təbiətə yad olduğundan, illər, və onillərcə ətraf-mühitə zərər yağdıracaq.

**4.** Öz ekoloji dərnəklərinizi qurun. Başqa bənzər qurumlarla məlumat mübadiləsi aparın.

**5.** Yan-yörənizdə yalnış iş görən varsa, tutalım meşəni qırır, ya sututarları (hovuzlar, içməli su anbarları və s.) kirlədirsə, əliniz çatan kütləvi informasiya vasitələrinə, ekoloji təşkilata yazıb bildirin.

**6.** Alacağınız şeyi diqqətlə düşünün. Bəlkə onsuz da keçinmək olar? Bəlkə də alacağınız şeyi düzəltmək üçün neçə-neçə fili, kərgədanı, bəbiri və başqa heyvanları öldürüblər ?!.

Unutmayın. Bunu tanışlarınıza, ata-ananıza da xatırladın.

**7.** Hər biriniz üçün ən başlıca şey, ətraf-mühit, haqqında daha çox məlumat toplamaqdır. Təbiət aləmini nə qədər yaxşı tanısaq, onu o qədər də yaxşı qoruya bilərik.

Ucadan oxu uşaqların sevimli tədbirlərindən biridir. Məhz bu tədbirin uşaqlar üzərində təsiri böyükdür. Quşları, heyvanları, balıqları, bitkiləri uşaqlara sevdirmək üçün “Dovşanın tənbəlliyi”, “Tədbirli dovşan”, “Çinar”, “Meşə kralı”, “Min dovşan otaran çoban” nağıllarının ucadan oxusunun kitabxanalarda təşkili məqsədə uyğundur.

Uşaqların təbiətə olan sevgisini daha da artırmaq məqsədilə şeir və inşa müsabiqələrinin keçirilməsi vacib şərtlərdən biridir. Təşkil olunacaq şeir müsabiqəsində iştirakçılar A. Səhhətin “Güllərin bəhsi”, “Yaz”, “Quşlar”, “Ayı və şir”, “Ayı və arılar”, M.Ə. Sabirin “Ağacların bəhsi”, R. Rzanın “Meyvələr”,
S. Rüstəmin “Azərbaycana gəlsin”, “Xəzər və durnalar”, “Ağacların dərdi”, “Təbiətin ətri”, “Anam torpaq”, H. Cavidin “Göygöl”, Rəşid bəy Əfəndizadənin “İlin fəsilləri dörddür” şeirlərini söyləyə bilərlər.

Mövzu ilə əlaqədar uşaqlar arasında rəsm müsabiqəsinin keçirilməsi də mümkündür. Müsabiqəni “Ekologiya uşaqların gözü ilə”, “Ən çox sevdiyim canlı” “Ətraf-mühit və biz” adı altında keçirmək olar.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## II. Anket sorğusu

Kitabxanalarda oxucular arasında onların ətraf-mühitlə bağlı fikirlərini öyrənmək məqsədilə anket sorğuları təşkil edə bilərik. Sorğuda təqdim olunan sualların cavablarını açıq və qapalı təqdim edirik ki, oxucular öz fikirlərini rahatca ifadə edə bilsinlər:

**1.** Ekogiya sözünün mənasını bilirsinizmi?

☺ Bəli
☺ Xeyir
☺ ________________________________________

**2.** Qırmızı kitab haqqında məlumatınız varmı?
☺ Bəli
☺ Xeyir

**3**. Ətraf mühitə qarşı hər zaman qayğılı davranırsınızmı?
☺ Bəli
☺ Xeyir
☺ ________________________________________

**4.** Təbiətə, heyvanlara və bitkilərə münasibətiniz?
☺ Yaxşı
☺ Pis
☺ ________________________________________

**5.** Ən çox sevdiyiniz heyvan, quş və bitkinin adını qeyd edin.
☺ ________________________________________

**6.** Küçədə və ya hansısa bir ictimai yerdə təbiətə qarşı pis rəftar edən insanlarla qarşılaşırsınızmı?
☺ Bəli
☺ Xeyr

**7.** Təbiətə dağıdıcı təsir göstərən insanlara qarşı münasibətiniz necədir?
☺ Pis
☺ Normal
☺ ________________________________________

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

**8.** Ev heyvanınız varmı?
☺ Bəli
☺ Xeyr
☺ Mən istərdim amma valideynlərim icazə vermir.

**9.** Evinizdə və sinif otağınızda dibçək çiçəkləri varmı?
☺ Bəli
☺ Xeyir

**10.** Sizcə ekologiyanı çirkləndirmədən istehsal həyata keçirmək mümkündürmü?
☺ Bəli
☺ Xeyir
☺ ________________________________________________

**11.** İnsanların heyvan mənşəli əşyalardan, aksesuarlardan istifadə etməsinə necə baxırsınız?
☺ Yaxşı
☺ Normal

**12.** Siz özünüz heyvan mənşəli əşyalardan istifadə edirsinizmi?
☺ Bəli
☺ Xeyir

**13**. Məktəbinizdə ekologiya ilə bağlı hər hansı bir dərnək fəaliyyət göstərirmi?
☺ Bəli
☺ Xeyir

**14**. Sizcə məktəblərdə belə dərnəklərin fəaliyyət göstərməsi zəruridirmi?
☺ Bəli
☺ Xeyir

**15.** Belə bir dərnəyin üzvü olmaq istərdinizmi?
☺ Bəli
☺ Xeyir

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## III. Intellektual oyun

Bilirik ki, kitabxanalar uşaqları maarifləndirməklə yanaşı onların intellektual səviyyələrinin yüksəldilməsidə də böyük rol oynayırlar. Elə bu səbəbdən də kitabxanalar tərəfindən uşaqların dünya görüşünü və ekologiya ilə bağlı biliklərini artıra biləcək intellektual oyunların keçirilməsi də mümkündür. Oyundan öncə uşaqlar komandalara bölünür və cavabları aparıcıya təqdim etmək üçün hər komandada bir kapitan seçilir.

Oyunumuz dörd mərhələdən ibarətdir. Hər bir mərhələ ayrılıqda təbiətin müəyyən canlısı haqqında olan sualları əhatə edir. Sualların cavabları test formasında tərtib olunsa da, suallarla yanaşı, cavablar da iştirakçılara aparıcı tərəfindən şifahi təqdim olunur. Hər bir sualı düzgün cavablandıran komanda bir xal qazanır. Sonda ən çox xal toplamış komanda qalib elan olunur. İntellekual oyunu sizə təqdim edirik. Düzgün cavabların qarşısında "ulduz" işarəsi qoyulmuşdur.

### I mərhələ. (Quşlar.)

**1.** Quşları öyrənən elm necə adlanır?

**A.** Kinologiya
**B.** Ornitologiya *
**C.** Entomologiya

**2.** Hansı quş balalarını qışda çıxarır?

**A.** Yapalaq
**B.** Alacadimdik *
**C.** Göyərçin

**3.** Hansı quş 4500 metrə qədər hündürlükdə uçur?

**A.** Qarğa
**B.** Durna *
**C.** Göyərçin
**D.** Qartal

### II mərhələ. (Həşəratlar.)

**1.** Ən böyük hörümçək hansıdır?

**A.** Qaraqurt
**B.** Tarantul *
**C.** Böv

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

**2.** Eşitmə orqanı ayağında yerləşən həşərat hansı həşəratdır?

**A.** Tarakan
**B.** Çəyirtkə *
**C.** May böcəyi

**3.** Ən balaca kəpənək hansı kəpənəkdir?

**A.** Güvə *
**B.** Şüşəqanad
**C.** İpəkqurdu kəpənəyi

## III mərhələ. (Ağaclar.)

**1.** Qədim zamanlarda mürəkkəb almaq üçün hansı ağacdan istifadə olunurdu?

**A.** Palıd *
**B.** Cökə
**C.** Ağcaqovaq

**2.** Ən uzun ömürlü ağac hansıdır?

**A.** Şam
**B.** Palıd *
**C.** Ağcaqovaq

**3.** Ən tez boy atan ağac hansı ağacdır?

**A.** Tozağacı *
**B.** Ağcaqayın
**C.** Şam

## IV mərhələ. (Heyvanlar.)

**1.** Hansı heyvanın gözləri 360 dərəcə fırlanır?

**A.** Buqələmun *
**B.** Timsah
**C.** Tısbağa

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

**2.** O hansı canlıdır ki, bütün qışı başı aşağı yatır?

**A.** Kirpi
**B.** Porsuğ
**C.** Yarasa *

**3.** Quru qurbağası qışda nə ilə qidalanır?

**A.** Cücülərlə
**B.** Heç nə ilə qidalanmır. Çünki qış yuxusuna gedir.*
**C.** İl ərzində topladığı azuqə ilə.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## IV. Suallar.

Göstərdiyimiz oyun nümunəsindən başqa kitabxanalarda müxtəlif viktorinaların da keçirilməsi mümkündür. Bu oyunların keçirilməsi üçün istifadə oluna biləcək sualları və onların cavablarını sizə təqdim edirik.

1. Məməlilərin 4300 növü, quşların 8663 növü var. Bəs sürünənlərin neçə növü elmə məlumdur?

2. Tarakanlar yer üzərində yaranmış ən qədim həşəratlardır. Bəs deyə bilərsinizmi bu həşəratlar yer üzərində nə vaxt peyda olmuşlar?

3. Çəyirtkələrin eşitmə orqanları bədənlərinin hansı hissəsində yerləşir?

4. Bu həşərat, qədim Misirdə günəşin və sülhün rəmzi sayılırdı. Hətta bu böcəklərin şəkilləri qızıl pulların üzərində öz əksini tapırdı. Həmin böcək hansıdır?

5. O hansı həşəratdır ki, ilin aylarından birinin adını daşıyır?

6. Ən uzun ömürlü həşərat hansı həşəratdır?

7. Hansı yeganə həşəratdır ki, nəinki başını fırlada bilir, hətta çiyni üzərindən də baxa bilir?

8. Nə üçün donuzlar zınqırovlu ilandan qorxmur?

9. Dünyanın ən iri varanları hansı ölkənin ərazisində yaşayır?

10. Nə üçün Avstraliyanın Darvin şəhərinin küçələrində tez-tez gəzişən timsahlara rast gəlinir?

11. Timsahlar nə qədər müddətə qidasız qala bilər?

12. Ən böyük yumurta hansı quşa məxsusdur?

13. Dünyanın ən kiçik quşu hansı quşdur?

14. Ən böyük qanadlı quş hansı quşdur?

15. Deyə bilərsinizmi nəyə görə qağayılar qutanların yaxınlığında gəzirlər?

16. Ən böyük yuvanı hansı quş qurur?

17. Kolibrilər nə ilə qidalanır?

18. Quşları öyrənən elm necə adlanır?

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

19. Hansı quşlar Makedoniyalı İskəndərin dövründə qızıl və gümüş qəfəslərdə saxlanılırdı?

20. Hansı quşdur ki, avtomobillərin ardınca düşüb onu izləyə bilir?

21. Hansı quşun ağzı tikanabənzər çıxıntılarla örtülmüşdür və nə üçün?

**Cavablar**

1. 2-3milyon

2. 3 milyon il

3. Ayaqlarında

4. Skarabey-peyin  qurdu

5. May böcəyi

6. Amerika cırcıraması- 17 il

7. Dəvədəlləyi

8. Çünki bu ilanın zəhəri donuzlara təsir etmir.

9. Şərqi-İndoneziyada

10. Çünki orada timsahlar artırılır.

11. 700 gün

12. Dəvəquşu. Onun yumurtasının uzunluğu 15-17 sm, diametri 13-15 sm-dir.

13. Kolibri 1,7 qr.

14. Albatros. Onun qanadlarının ölçüsü 5,5 metrdən çoxdur.

15. Onların ovlarını oğurlamaq üçün.

16. Evkalipt toyuğu. Onun yuvasının uzunluğu 4,6 metr, eni isə 10,6 metrdir.

17. Çiçəklərin nektarı ilə.

18. Ornitologiya

19. Tutuquşu

20. Dəvəquşu

21. Pinqivinin. Sürüşkən balığı ağzında rahat tuta bilmək üçün.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## V. Uşaqlar, təbiət imdada çağırır bizi!

Ədəbi bədii gecələr uşaq kitabxanalarında həvəslə və maraqla keçirilən tədbirlərdən biridir. Mövzu ilə əlaqədar "Uşaqlar, təbiət imdada çağırır bizi!" adlı tədbirin ssenarisini sizə təqdim edirik. Ssenaridə bir çox səhnəcik nümunələri öz əksini tapmışdır. Hər bir kitabxana öz imkanlarına uyğun olaraq səhnəciklərdən istifadə edə bilər.

# Ssenari.

*(Tədbirdən öncə çıxışlar olur. Çıxışlardan sonra ekranda slayd -**1** nümayiş olunur.)*

I aparıcı: Salam, əziz qonaqlar, əziz uşaqlar! Hamınızı kitabxanamızın hazırladığı ekologiya ilinə həsr olunmuş tədbirimizdə xoş gördük.

II aparıcı: Bildiyimiz kimi 2010-cu il hörmətli prezidentimiz İlham Əliyev tərəfindən "Ekologiya ili" elan olunmuşdur. Bu münasibətlə kitabxanamızın hazırladığı tədbiri sizlərə təqdim edirik.

I aparıcı: Biz öz təbiətimizin sahibiyik. O bizim üçün günəş kimi tükənməz mənbə və təmiz həyat xəzinəsidir. Bu xəzinəni bir sirr kimi açmaqla iş bitmir, ona sahib çıxmaq və onu qorumaq lazımdır. Balıqlara təmiz su, quşa səma, heyvanlara meşə, dağ, dərə, çöl gərəkdir. İnsana isə vətən lazımdır. Təbiəti qorumaq isə elə vətəni qorumaq deməkdir.

II aparıcı : Vətənimiz Azərbaycan gözəl təbiətli bir ölkədir. Ulu yaradan vətənimizdən heç nəyi əskik etməmişdir.

Dağlarımın bəyaz qarı,
Düzlərimin ilk baharı,
Bağ-bağatın şirin barı
Azərbaycan təbiəti.

I aparıcı:

Turacları gözdən itər,
Ceyran olub düzdən ötər,
Sərt qayada gül bitirər,
Azərbaycan təbiəti.

II aparıcı:

Öz ürəyim, öz canımdır,
Sevinc dolu ümmanımdır,
Təbiətim, dərmanımdır
Azərbaycan təbiəti.

I aparıcı:

Qobustanın qayasıdır,
Göygölümün boyasıdır,
Şeir, sənət dünyasıdır
Azərbaycan təbiəti.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

II aparıcı: Hamımız bilirik ki, yer kürəsi bir neçə milyard ildir ki, mövcuddur. Təxminən iki milyon il bundan qabaq isə insan yaranmışdır. Bəs heç düşünmüsünüzmü ki, planetimiz necə olur ki, insanla birlikdə yaşaya bilir? İnsanların normal yaşaması üçün təbiət heç nəyi əsirgəməmişdir. Bəs insanlar necə təbiəti lazımi qədər qoruya bilirlərmi? Çox təəssüf ki, insanların təbiətə olan münasibətləri eyni deyil. Bir çox insan təbiəti sevib onu qorumağa çalışdığı halda, bir çoxları ona ziyan vurur.

*(Elə bu vaxt səhnəyə 10-12 yaşlarında iki oğlan daxil olur. Onların hər ikisinin əlində sapand var. Oğlanların dəcəl uşaq olduqları geyimlərindən və səhnədə yerişlərindən bəlli olur. Aparıcı sözünü kəsir və onlara baxmağa başlayır.)*

Nazim: Gözlə, mən elə indicə o sərçə balasını vuracağam. Ay, yenə də alınmadı. O uçub getdi.

Orxan: Bacarıqsızın biri! Sənin ucbatından oyunumuz da maraqsız keçir. Axı mən sənə dünən də dedim ki, bu sapandla bir dənə də olsun quş vura bilməyəcəksən. Gəl sən sapandı bu ağacın budağından düzəlt. Onda görərsən ki, sərçə nədi yeee… lap durna vurarsan.

*(O, əlini yaxınlıqdakı ağaca atıb budağını qoparmaq istədiyi vaxt aparıcı müdaxilə edir.)*

I aparıcı: Ay oğlan, dayan görək. Nə edirsən?

Orxan: Necə yəni nə edirsən? Özümüzə təzə sapand düzəltmək istəyirik. Buna görə də ağac budağı lazımdır. Mən də bu ağacın budağını qıracağam. Ağacdı da, necə olsa yenə təzə budaqları çıxacaq.

II aparıcı: Uşaqlar, axı belə olmaz. Bu sizin kimi uşaqlara yaraşan hərəkət deyil. Yəqin siz ağacların, quşların, heyvanların insana verdikləri faydadan onların xeyirlərindən xəbərdar deyilsiniz. Bəxtiniz gətirdi ki, bizim balaca dostlarımız bu mövzu ilə əlaqədar kiçik bir səhnəcik hazırlayıblar. Sizi də qonaqlarımızla birlikdə həmin səhnəciyə baxmağa dəvət edirik. Əminəm ki, həmin səhnəciyə baxandan sonra tutduğunuz işdən peşman olacaqsınız.

*(Aparıcılar və uşaqlar səhnəni tərk edirlər. Səhnədə bir ağac görünür. Onunsa yanındakı təpədə bir qartal oturub. Elə bu vaxt canavar qaçaraq oradan keçir.)*

Qartal: Ay qurd, hara tələsirsən?

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Qurd: Dovşanı qovalayıram. Axı nahar etmək lazımdır. Qaçmasam ac qalaram.

Qartal: Bəli bu həqiqətən də belədir. Biz də uçmasaq ac qalarıq. Mən də bu ağac kimi beləcə bir yerdə rahatca oturmaq, hazırca yemək istərdim.

Qurd: Ancaq unutma ki, biz vaxtımızı belə keçirsək acından ölərik.

Ağac: Mənsə məhv olmaram. Çünki mən öz qidamı birbaşa torpaqdan alıram. Beləcə də harasa qaçmalı və yem axtarmalı olmuram. Mən hətta başqalarını da nahara dəvət edirəm. Quşlar uçub gəlib mənim meyvələrimə qonaq olurlar.  Hətta ceyran, cüyür, maral da mənim yarpaqlarımla qidalanır.

Qartal: O  ki qaldı bizə, biz bitki ilə qidalanmırıq. Sizin işiniz-gücünüz rahatca oturmaq, hazır yemək yeməkdir.

Qurd: Rahatca oturmaq, bizlik deyil. Bizi qidaya ayaqlarımız çatdırır. Özümüzü təriflәmәk olmasın, ancaq biz canavarlar yaman qoçağıq.

Qartal: Sənin dediklərin də düzdür qoçaq, amma bizi də yaddan çıxarma. Bizim də bu qanadlarımız olmasa ac qalarıq. Odur ki, biz qartallar da siz canavarlardan heç geri qalmarıq. Sizsə, ay ağac, siz ancaq biz quşların uçmağına mane olursunuz. Dünən yağlı bir siçovulun dalınca düşmüşdüm. Ovu caynaqlarıma keçirməyimə azca qalmışdı ki, birdən sənin budaqlarına dəyib müvazinətimi itirdim, ovum da əlimdən çıxdı. Üstəlik saç düzümüm də korlandı.

Qurd: Yaxşı ay qartal, bəsdir  şikayətləndin. Imkan ver ağaca bir sual verim. Bəs siz ağaclar illərlə bir yerdə durmaqdan bezmirsiniz?

Ağac: Bəzən darıxıram, hətta qorxduğum vaxtlar da olur. Ancaq siz başa düşmürsünüz ki, biz bitkilər olmasaq siz acından ölərsiniz.

Qurd: Biz qidanı ayaqlarımızın…

*(Ağac Qurdun sözünü kəsir).*

Ağac: …köməyi ilə əldə edirsiniz. Amma bu belə deyilir. Əslində isə sizi qidalandıran biz bitkilərik. Ilk əvvəl biz torpaqdan qida alırıq. Daha sonra  maral, ceyran, cüyür, qoyun biz bitkilərlə qidalanır. Bundan sonra siz canavarlar və digər  vəhşi heyvanlar dovşanı, ceyranı tutub ləzzətlə yeyirsiniz. Dostlar bu təbiət belə qurulub, bəzi heyvanlar, quşlar bitkilərlə qidalanır, digərləri də onlarla.

Qartal: Deməli bu səbəbdən siz bitkilər bir yerdə bitirsiniz, axı siz hamımızın uçanların,  qaçanların, yəni bütün canlıların yaşamasına kömək edirsiniz. Çünki, siz hamımızın əvəzinə ayaq üstdə durmalısınız. Hələ havanı oksigenlə zənginləşdirməyinizdən danışmıram. Yəqin özünüzü əsl qəhrəman kimi hiss edirsiniz.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Ağac: Hamının yaşamasına kömək etmək əlbəttə ki, qəhrəmanlıqdır. Ancaq üzərimizə düşən işin məsuliyyəti olduqca böyükdür.

Qurd: Məncə bəzən özünüzün həyatda qalmağınız uğrunda apardığınız mübarizə də sizi əsl qəhrəmana çevirir. Axı bəzi məktəblilər sizin qol-budağınızı qırır, gövdənizi mismarla cızırlar. Bu əsl biabırçılıqdır.

Ağac: Ancaq onların hamısı belə deyil. Bax ətrafa gör nə qədər mehriban simalı insan var. Bu insanlar yaxşı bilirlər ki, biz bitkilər olmasaq, yer üzərindəki həyat məhv olar. Odur ki, mən bütün bu uşaqlara və qonaqlara Məmməd Arazın "Ağac ək" adlı şerilə müraciət edirəm:

Ömründə bir ağac əkmisənmi?
Ağac əkmisənmi?
Ola palıd ağacı o,
Ola həmişəyaşıl
Zeytun ağacı ola.
Ola narbənd ağacı, ola.
Ola sərv ağacı
Ola ardıc ağacı
Ağac ək, əllərə baxanda
Əllərin utanmasın.
Haqq-ədalət ağacı
Ək həqiqət ağacı,
Ola insan ağacı,
Ola loğman ağacı,
Ola vicdan ağacı.
Qoru bu yolla - yeri göydən
Göyü yerdən,
Qoru, göydən Yeri.

(*Onlar səhnəni tərk etdilər. Aparıcılar səhnəyə daxil olur.)*

I aparıcı: Uşaqlar, yəqin hamınız quşları sevirsiniz. Bəs onlar haqqında kifayət qədər məlumatınız varmı?

II aparıcı: Əlbəttə ki, balaca dostlarımız çox ağıllıdır.

I aparıcı: Onda de görüm, dünyadakı ən balaca quş hansı quşdur?

II aparıcı: Bunu bilməyə nə var ki, həmin quş kolibridir. Sözsüz ki, bura yığışan dostlarımız da bunu bilir. Yaxşı, daha bəsdir bizi imtahana çəkdin. İndi isə gəl uşaqlarla birlikdə növbəti səhnəciyimizə baxaq.

*(Uşaqlar səhnəyə haqqında şeir ifa edəcəkləri quşların paltarında çıxır. Ekranda slayd – **2** nümayiş olunur. )*

Göyərçin : Ay quşlar, deyə bilərsinizmi ki, biz bura niyə yığışmışıq?

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Sığırçın: Bu gözəl uşaqları görmürsən məgər? Biz bu gün onlarla görüşə gəlmişik.

Şanapipik: Dostlar, hamımız bilirik ki, insanlar bizi vəsf edən gözəl şeirlər yazıblar. Siz haqqınızda yazılmış şeirlər bilirsinizmi? Kim bilirsə çıxsın önə.

Göyərçin: Elə biri mən. Gəlin sizə özüm haqqında yazılmış bir şeir deyim:

Çöl quşudur göyərçin,
Əhli göyərçin də var.
Nə tapsa – darı, mərci,
Dənləyib yaşayırlar.
Qara, sarı, ağca var.
Göy, zolaq-zolağı var.
Gah uçur dəstə-dəstə,
Gah qonurlar dam üstə.

Bülbül: Çox gözəl şeir idi, amma mənim üçün yazılmış şeirə çata bilməz:

Bu sarı bülbüldür, bu da boz bülbül,
Sevdiyi çəməndir, çiçək, qızılgül.
Şirin cəh-cəhi var, nəğməli quşdur,
Bülbülə çox mahnı, söz qoşulmuşdur,
Yay gecələrində səhərə qədər
Nəğməsiylə dolur çöllər, çəmənlər.
Nəğməli bülbül də köçəri quşdur,
Sevmədiyi fəsil, boranlı qışdır.
Bu quşlar çox sevir gülü, baharı,
Çiçəkli çölləri, yaşıl bağları.

Şanapipik: Doğrudan da gözəl şeir idi. Ancaq mənim üçün yazılan şeir də sənin şeirindən heç geri qalmaz:

Şanapipik, şanapipik!
Ala-bəzək, qara kirpik.
Üst-başı zolaq-zolaq,
Balaca boy, nazik ayaq.
Daraq kimi pipiyi var,
Gah cüt olur, gah tək olur,
Onu gendən görmək olur.

Sığırçın: Mənim haqqımda yazılmış şeirlər də çoxdur. Gəlin, onlardan birini sizin üçün söyləyim:

Sığırçındır bu quşlar,
Göydə qanad açmışlar.
Bu çil-çilli sığırçın
Faydalıdır insançın.
Afat çəyitkələrə
Onlar yaman düşmandır.
Bax dimdikləri qandır.
Hərəsi çəyirtkədən

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Öldürmüşdür nə qədər!..
Indi bu duru göldə
Həvəslə çimişirlər.

Sığırçın: Ay qaranquş, axı sən bütün quşlardan əvvəl gəlib baharın gəlişilə insanları müjdələyirsən. Odur ki, onlar səni çox sevirlər. Yəqin sənin haqqında yazılan şeirlər də çoxdur. Zəhmət olmasa birini bizim üçün söylə.

Qaranquş: Böyük məmnuniyyətlə:

Haçaquyruq qaranquş
Eyvanda yuva qurmuş.
Sinəsi bütün ağdır,
Yayda bizə qonaqdır.
Qışda çıxır səfərə:
Uzaq isti ellərə.
Çör-çöpdən yuva qurur,
Üstünə suvaq vurur.

Bildirçin: Dostlar, mənim haqqımda yazılmış şeirlər də az deyil. Qoyun, onlardan birini deyim:

Bu xırda quş – bildirçin.
Başlayan zaman biçin
Dolanır tarlaları,
Görsün harda var darı.
Pırhapır qanadlanır
Bu kiçik tarla quşu,
Çox itidir uçuşu.

Sığırçın: Dostlar, söylədiyimiz şeirlər yəqin ki, balaca yoldaşlarımızın da xoşuna gəldi. Ancaq biz quşların sizlərdən bir xahişi var. Quşları gördüyünüz zaman onları incitməyin, daşlamayın. Biz quşlar təbiətin ayrılmaz tərkib hissəsiyik. Qida zəncirində də mühüm yer tuturuq. Bizlər, bitkilərə ziyan vuran həşəratları yeyir, ağacların bir-birilə tozlanmasına bununla da məhsuldarlığın artmasına kömək edirik. Hər birimizin insanlara xeyirimiz böyükdür. Bizi sevin və qoruyun.

*(Quşlar səhnəni tərk edirlər.)*

I aparıcı: Əziz uşaqlar, hörmətli qonaqlar, ümüd edirəm səhnəciyimiz ürəyinizcə oldu. Indi isə növbə bizim sizlər üçün hazırladığımız xüsusi müsahibəyə gəlib çatdı. Biz üç ayrılmaz dostu səhnəyə dəvət edirik. Onu da qeyd edim ki, siz bu dostları yaxşı tanıyırsınız amma onlar haqqında bilmədikləriniz də çoxdur.

*(Üç dost çirkli, hisli paltarlarda səhnəyə çıxır. Onların əlində plakatlar var:*

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

*Tüstü, his və toz!* ***Ətraf-mühiti çirkləndirmək cinayət deyil!*** *Aparıcılar diksinərək geri çəkilir.)*

II aparıcı: Deməli, çirki üçlük sizsiniz.

Tüstü: Bəli gəlin tanış olaq. Mən tüstüyəm. Bu hisdir, bu isə mənim sevimli dostum tozdur.

I aparıcı: Uşaqlar, deməli bizim nəfəs aldığımız havanı çirkləndirən sizlərsiniz. Buna necə nail olduğunu bizə başa sala bilərsinizmi?

Toz: Biz toz zərrəcikləri inşaat vaxtı, yeraltı sərvətlərin çıxarıldığı zaman, həm də əkin zamanı torpaq şumlanarkən havaya qalxırıq. (O əlindəki ağ tozu havaya səpələyir.) Bizim sayəmizdə insanlar bir çox xəstəliklərə yoluxur ki, bu da bizləri yamanca əyləndirir.

His: Elə ki, gördünüz haradasa nəsə yanır deməli, mən də oradayam. Benzin, neft, adicə odun yandığı zaman mən peyda oluram. Lakin bizim çoxalmağımızda əsasən zavodların, elektrostansiyaların rolu daha da çoxdur. Zavodlardan qalxan his insan orqanizminə nə qədər zərərdir onu bilirsinizmi? O əhatədə olan evlər, uşaq baxçaları, məktəblər hisdən yararsız hala düşmürmü?

Tüstü: İmkan verin, mən də danışım. Mən avtomobillərin hərəkəti, zavodların fəaliyyəti zamanı havaya qarışıram. Ən çox sevdiyim məşğuliyyət insanların ciyərlərinə dolub onların nəfəs almalarını çətinləşdirməkdir. Mən sizlərin gözlərinizi yaşartmaqdan, onları yandırmaqdan, boğazınızı qıcıqlandırmaqdan ləzzət alıram.

His: Bəsdir, özünü öydün, tüstü gəl gedək, hələ görəsi çox işimiz var.

*(Onların üçü də uçub gedir.)*

II aparıcı: Hələ bu harasıdır! İndi isə kükürd-dioksidi sizə təqdim edirik. *(Kükürd-dioksid səhnəyə çıxır. Aparıcılar o dəqiqə burunlarını tutur və geri çəkilir).* Əminəm ki, sizin nəfəs aldığımız havaya necə qarışdığınız hamı üçün çox maraqlıdır. Danışın uşaqlar da eşitsin.

K.d: Ay qoçaq, siz məgər qəzet, jurnal oxumursunuz? Axı hər həftə, hər ay qəzetlərdə, jurnallarda mənim haqqımda məqalələr dərc olunur. Mən elektrostansiyaların borularında peyda oluram. Elekrtik enerjisi almaq üçün kömür yandırıldığı zaman belə qarşınızda məni görürsünüz.

I aparıcı: Siz insanlara hansı ziyanları vurursunuz.?

K. d: Ooooo pislik etmək, ziyan vurmaq mənim sevimli işimdir. Hətta ağaclar da mənim ucbatımdan inkişafdan qalır. Ancaq

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

havada damcılara qarışaraq, turşuya çevrilərək insanların üstünə, yerə yağmağı daha çox sevirəm. *(O ətrafa su səpələyir.)*

II aparıcı: Turş yağışlar, olduqca ciddi problemdir. Bu yağışlar bitkiləri inkişafdan saxlayır, onları məhv edir. Bundan əlavə turşulu yağışlar metalları karroziyaya uğradır və binalara dağıdıcı təsir göstərir.

K.d: Elədir ki, var. Yaxşı, mən tələsirəm. Hələ görüləsi işim çoxdur.

I aparıcı: Ümüd edirəm ki, tezliklə canımızı sizdən qurtararıq.

K.d: Siz mənimlə çətin bacararsınız.*(Uçur.)*

II aparıcı: Nə deyə bilərəm ki! Bu havanı çirkləndirən dostlar olduqca güclüdürlər. İnsanlar onları yaradıb, insanlar da onların öhdəsindən gəlməlidir. Gözləməksə olmaz, çünki o zaman gec ola bilər.

I aparıcı: Indi isə əziz uşaqlar gəlin sizinlə kiçik bir oyun keçirək. Tədbirdən öncə sizə payladığımız kartların üzərində heyvan, gül və ağac şəkilləri var. İndi biz bu şüşə qabdan heyvanların, ağacın, və ya gülün adı yazılmış kağızlar çıxaracağıq. Kimin kartında həmin heyvanın şəkli varsa, ona kitabxanamız tərəfindən hədiyyə veriləcək.

*( Viktorinadan sonra "Açа-açа güllərimiz" mahnısı səsləndirilir.)*

I aparıcı Dostlar, kitabxanamıza qəribə bir məktub gəlib.

II aparıcı: Kimdəndir? Oxu görək üstündə nə yazılıb!

I aparıcı: Bağlardan-bağçalardan, güllərdən-çiçəklərdən, ağaclardan-yarpaqlardan dəcəl uşaqlara.

II aparıcı: Çox maraqlıdır. *(o məktubu alır və açır.)* Qəribədir, məktub şeirlə yazılıb. Oxuyum, siz də qulaq asın:

*(Aparıcı Mirmehdi Seyidzadənin şeirini oxunmağa başlandığı zaman ekranda slayd-**3** nümayiş olunur.)*

Şikayət edir
Bağçalar-bağlar:
"Bizi incidir
Dəcəl uşaqlar.
Harda gül görsə
Dəcəllər dərir,
Yaşıl bağlara
Çox zərər verir.
Nadinclər gəzir
Yaşıl bağları
Qırır-sındırır
Göy budaqları".
Göy yarpaq açmış
Körpə budaqlar
Deyir: - " Qırmayın
Bizi, uşaqlar!

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Boy atıb yayda
Dirçəlirik biz,
Könül oxşayır
Yaşıl kölgəmiz.
Bağda gəzməyin
Bir qaydası var:
Ağac qırmasın
Gərək uşaqlar.
Bu dəcəllikdən,
Gəlin, əl çəkin,
Bacardıqca siz
Gül-çiçək əkin.
Bol ağac əksə
Uşaqlar əgər,
Bağ kimi olar
Hər kənd, hər şəhər".

I aparıcı: Belə bir məktubdan sonra heç rəvadırmı ki, ağacların budağını qıraq, çiçəkləri qoparaq. Axı ağaclar, güllər, təkcə öz gözəllikləri ilə insanlara zövq vermir, eyni zamanda onların bir çoxu, neçə-neçə xəstəliyin dərmanı, təmiz hava mənbəyidir. Odur ki, hamımız bitkiləri sevməli, onları qorumalıyıq.

II aparıcı: Bizlərdən birimiz xəstələndiyimiz zaman həkimə müraciət edirik. Bəs heç düşünmüsünüzmü ki, təbiətin köməyə ehtiyacı olduğu zaman ona kim kömək əlini uzadır? Biz əsrlərdir ki, təbiətin bizə verdiyi hazır məhsulları mənimsəyirik. Nə vaxtsa bizim həyatımız təbiətdən asılı idisə, indi insan təbiətin taleyini həll edir. Növbəti səhnəciyimiz məhz bu mövzuya həsr olunub.

*(Kəndli səhnəyə daxil olur. Arxada ekranda video slayd* **4** *nümayiş olunur.)*

Kəndli: Salam uşaqlar, yaman yorulub əldən düşmüşəm. Adam nə qədər əziyyət çəkər. Bu qədər vəsait ayırmışam, toxum almışam, onu min bir əziyyətlə əkmişəm suvarmışam. Gəl gör ki, heç bir nəticə yoxdur. Bu torpaq yaman tənbəlləşib. Bir dənə də olsun toxum cücərtmir. Gəlin birlikdə torpağı səhnəyə çağıraq, görək bu nə məsələdir.

*(Uşaqlar kəndli ilə birlikdə torpağı səsləyir. Torpaq səhnəyə çıxır. Onun əynində tozlu, neftli bir paltar var.)*

Torpaq: Bu nə səs-küydür. Nə olub ay kişi?

Kəndli: Sən bir de görək nə üçün mənim bu qədər əziyyətimi, pulumu heç edirsən? Nə əkirəmsə, onu cücərtmirsən.

Torpaq: Ay, kişi, məndən niyə bu qədər şikayət edirsən? Mən əlimdən gələni əsirgəmirəm. Ancaq tərkibimdə olan bu zəhərli maddələr, neft, mazut, qarışıq dərman və gübrələr *(o əynindəki çirkli*

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

*paltarları göstərir.)* mənim toxumu cücərtməyimə mane olur. Bir də axı günəş mənə olduqca az xeyirli şüa göndərir. Göndərdiyi zərərli şüalar isə cücərtdiklərimi də yandırıb tökür. Buludsa yaman xəsislik edir. Üzərimə yaman az yağış yağdırır. Yağan yağış da məni ancaq çirkli suyu ilə zəhərləyir.

*(Ondan söhbət getdiyini duyan bulud səhnəyə çıxır.)*

Bulud: Məndə heç bir günah yoxdur. Dənizlərdən, göllərdən mənə kifayət qədər su buxarlanmır. Bunun səbəbkarı da günəşdir. O tənbəllik edir, öz işinin öhdəsindən gələ bilmir. Gəlin bunun səbəbini onun özündən soruşaq. Uşaqlar gəlin birlikdə günəşi çağıraq.

*(Kəndli, bulud, torpaq uşaqlarla birlikdə günəşi səsləyir. Günəş öz adını eşidər-eşitməz buludların arxasından boylanır.)*

Günəş: Səhv etmirəmsə məndən şikayətlənirsiniz. Ancaq xəbəriniz olsun ki, öz şüalarımı nə qədər yerə əvvəlki kimi göndərməyə çalışsam da bu mümkün olmur. Buna səbəb ultrabənövşəyi şüaların qarşısını alan azot qatının zədələnməsidir. Hər gün zavodlardan, fabriklərdən havaya buraxılan zərərli qazlar azon qatının məhvinə səbəb olmuşdur. Buxarlanmaya gəldikdə isə nə qədər çalışıramsa, nəticə heç də yaxşı olmur. Bəlkə də günah dənizin özündədir.

*(Elə bu vaxt dənizin ləpələrinin səsi eşidilir, və dəniz səhnəyə çıxır.)*

Dəniz: Mən nə edə bilərəm ki, bu işdə mənim heç bir günahım yoxdur. İnsanların axıtdığı tullantı, neft və digər çirkab suları dənizə tökülür. Bu da kifayət deyilmiş kimi məişət tullantıları, zavod və fabriklərin zəhərli maddələrlə çirkləndirilmiş çaylar axaraq mənim sularıma qarışır. Axıdılan maddələrdən üzərimdə yaranan qat mənim sularımın buxarlanmasına mane olur. Həm də nadir dəniz heyvanları, adı Qırmızı kitaba düşmüş, qiymətli balıqlar öz gözəlliyi ilə adamı heyran edən balaca meduzalar çirklənmiş, zəhərlənmiş sudan məhv olurlar.

*(Nə özünün, nə dənizin, nə torpaq və buludun günahkar olmadığını görən günəş üzünü kəndliyə tutur:)*

Günəş: Ey insan, sən nə üçün günahı başqalarında axtarırsan? Axı bütün bu bitkiləri, heyvanları məhv edərək, suyu havanı çirkləndirən, təbiəti məhv edən siz insanlar deyilsinizmi? Siz təbiətlə ətraf-mühitlə bu cür kobud rəftarınız təkcə təbiətə deyil, sizin özünüzə, övladlarınıza da böyük ziyan vurur. Ona görə də ey insanlar, yaşınızdan asılı olmayaraq, hər biriniz təbiəti sevməli, onun qayğısına qalmalısınız.

*(Səhnəcikdən sonra "Kəndimiz" mahnısı səslənir. )*

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

I aparıcı: Hörmətli qonaqlar, əziz uşaqlar, indi səhnəyə meşə kralı şiri dəvət edirik.

Şir: Salam uşaqlar, hamınızı xoş gördük. Mən sizinlə kiçik bir oyun keçirmək istəyirəm. Belə ki, mən sizə bəzi canlıların əlamətlərini deyəcəyəm. Kim daha çox suala düzgün cavab versə, onu mükafatlandıracağam və qalib elan edəcəyəm.

*(Şirin əlində bir qutu var. Sualların cavabı onun içinədir. Suallara düzgün cavab verdikcə şir şəkilləri qutudan çıxarır.)*

Sual: Ən böyük yumurta bu quşa məxsusdur. Bu quşlar hətta hərəkətdə olan avtomobili də qaçaraq izləyə bilir. Həmin quş hansı quşdur?

Cavab: Dəvəquşu.

Sual: O hansı canlıdır ki, onun gözləri 360 dərəcə fırlanır?

Cavab: Buqələmun.

Sual: Bu yırtıcı heyvanlar Avstraliyanın Darvin şəhərində çoxaldıldığı üçün sərbəstcə küçələrdə gəzirlər. Bu sürünənlər 700 gün ac qala bilir. Həmin heyvan hansı heyvandır?

Cavab: Timsah.

II aparıcı: Əziz uşaqlar, yəqin ki, oyunumuz xoşunuza gəldi. İndi sizə belə bir sual verim, sevimli şairimiz M. Ələkbər Sabirin "Ağacların bəhsi " şeirini oxumusunuzmu? *(Uşaqlar "bəli" cavabını verir.)* Gəlin həmin şeiri yadımıza salaq:

Alma, palıd, şam ağacı hal ilə
Eylədilər bəhsi bu minval ilə...

Görürəm ki, hamınız bu şeiri əzbər bilirsiniz. Əziz uşaqlar, bu şeirin qəhrəmanları sizinlə görüşə gəliblər. Gəlin onları səhnəyə dəvət edək.

*(Alma, palıd, şam ağacı səhnəyə daxil olur. Arxada ekranda slayd* **5** *nümayiş olunur. )*

Alma: Salam uşaqlar, yəqin ki, bizi yaxşı tanıyırsınız. Amma biz bu dəfə bir-birimizlə mübahisə etməyə deyil, sizinlə görüşə gəlmişik.

Palıd: Bizim sizinlə görüşə gəlməyimizin səbəbi ekologiyanın tərkib hissəsi olan biz ağacları sizə yaxından tanıtmaqdır.

Şam: Bildiyimiz kimi biz ağacların üzərinə düşən məsuliyyət olduqca böyükdür. Bizlər havanı zərərli qazlardan, təmizləyir, onu oksigenlə zənginləşdiririk. Köklərimiz torpağı yumşaldır, onu münbitləşdirir. Bir çoxumuzun oduncağı, yarpaqları, kökləri insanlara böyük fayda verirsə, bir çoxumuzun da verdiyi bəhər, siz uşaqları sevindirir, vitaminlərlə zəngin meyvələrimiz sağlam böyüməyinizə yardımçı olur. Hərçəndi bu şərəf hər bir ağaca qismət olmur.

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

Palıd: Unutdunmu, ay dostum, biz bura mübahisə üçün gəlməmişik. Bizim bu alma ağacı da yaman zarafatcıldır. Ancaq onu da deyək ki, biz bura tək gəlməmişik. Respublikamızın bir çox ağacları da sizin görüşünüzə gəlib.

*(Şabalıd, akasiya, dəmirağac, cökə, sərv ağacı səhnəyə daxil olur.)*

Şabalıd: Uşaqlar, hamınızı xoş gördük. Mən şabalıd ağacıyam. Deyə bilərsinizmi mən ölkəmizin hansı ərazisində bitirəm? Afərin. Düz tapdınız. Zaqatala və Qəbələ rayonları mənim məskənimdir.

Sərv: Mənsə sərv ağacıyam. Mən ta qədimdən bəri bu odlar diyarında yaşayıram. Mənim insanlara faydam olduqca çoxdur. Meyvələrim, yarpaqlarım, bir çox xəstəliklərə dərmandır. Yəqin bilirsiniz ki, qədim zamanlarda oda sitayiş edən azərbaycanlılar dini saflığa nail olmaq üçün ətirli bitkilərdən istifadə edirdilər. Ətirli iynələrim olduğuna görə mən də Zərdüşt peyğəmbərin ağacı sayılıram. Bu səbəbdən insanlar məni müqəddəs ağac adlandırır.

Dəmirağac: Mən Dəmirağacam. III dövr relik bitkisiyəm. Əgər Talış dağlarına yolunuz düşsə, Hirkan qoruğunda mənə rast gələrsiniz. 200 ilə qədər ömrüm var. Olduqca möhkəm olduğum üçün mənə dəmirağac deyirlər.

Söyüd: Uşaqlar, mən də sizə bir tapmaca deyim görək mənim hansı ağac olduğumu biləcəksinizmi?

Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında sarvan yatar.

Afərin uşaqlar mən söyüd ağacıyam. Siz yaman ağıllı uşaqlarsınız.

Alma: Uşaqlar, biz ağacların siz insanlara verdiyi fayda olduqca böyükdür. Bu səbəbdən də bizi sevməyinizi qorumağınızı sizdən xahiş edirik.

*(Ağaclar səhnəni tərk edir.)*

***Qeyd:*** *Hazırlanmış ssenaridən kitabxanaçılar tədbir hazırlarkən öz kitabxanalarının şəraitinə və imkanına uyğun səhnəcikdən istifadə edə bilərlər. Tədbirin sonunda "Meşəyə insan gəlir" cizgi filmini də nümayiş etdirmək olar.*

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)

## Ədəbiyyat siyahısı.

**İnternetdə:**
www. google.az

**Kitablar:**

1. Azərbaycan  uşaq ədəbiyyatı antologiyası. Üç cilddə. II cild. B.: Öndər nəşriyyat, 2004, 264 s.
2. Abbas S. Seçilmiş əsərləri. B.: Lider, 2005, 456 s.
3. Həsənli O. Q., Bəylərov T. M. Şagirdlərin ekoloji tərbiyəsi. B.: Mütərcim, 2007.- 212s.
4. Məmmədov, Q. Azərbaycanın ekoetik problemləri: elmi, hüquqi, mənəvi aspektlər.- B.: Elm, 2004. – 380 s.
5. Süleyman R. Seçilmiş əsərləri. Üç cilddə. I cild. B.: Şərq-Qərb, 2005, 256 s.
6. Uşaqların ekoloji məhkəməsi. Üç cilddə. I cild. B.: Tutu, 2002,  94 s.
7. Uşaqların ekoloji məhkəməsi. Üç cilddə.  II cild. B.: Tutu, 2002,  87 s.
8. Uşaqların ekoloji məhkəməsi. Üç cilddə.  III cild. B.: Tutu, 2002,  87 s.

**Dövrü mətbuatda:**

1. Əhmədov Q. Ekologiya  sağlam həyat tərzinin vacib şərtidir. // Azərbaycan.- 2006.-  s. 212
2. Göyçaylı Ş. Ekoloji tədris gücləndirilməlidir. // Azərbaycan.- 2006.- 30 sentyabr.
3. Hüseynova  L. Xəzərin ekologiyası yaxşılaşdırılır. Xalq qəzeti.- 2007. – 19 yanvar. – s. 7
4. Mükərrəmoğlu. M. Ətraf mühitin mühafizəsinə qayğı ümumxalq işidir. // Xalq qəzeti. – 2009.- 9 aprel
5. Mükərrəmoğlu M. Ətraf mühitin mühafizəsi dövrün vacib tələbidir. // Xalq qəzeti. – 2006.- 10 sentyabr.
6. Mükərrəmoğlu M. Ekoloji problemlərin kompleks həlli diqqət mərkəzindədir. // Xalq qəzeti. - 2008. – s.7
7. Mükərrəmoğlu M. Ekoloji tarazlığın qorunması günün aktual problemidir. // Xalq qəzeti. - 2009. - 26 aprel.

**Tərtib edən:** Xəyalə Xəlilova – F. Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

**Redaktor:** Fizurə Quliyeva – F. Köçərli adına Respublika Uşaq Kitabxanasının  direktoru

Create PDF files without this message by purchasing novaPDF printer (http://www.novapdf.com)